

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 148 (21.558)

11 avqust 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələ rayonuna səfərə gedib.

Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev abidənin ətrafında, ümumiyyətlə, son illər rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verib.

Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qəbələdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının yeni inzibati binasının, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Qəbələ regional "ASAN xidmət" mərkəzinin, "Qafqaz Tufandağ Mountain Resort" otelinin, Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun açılışlarında, "Qəbələ" Park-Bulvar Kompleksinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib, Qəbələdə icrası davam edən turizm və idman infrastrukturu layihələri, Dövlət Sərhəd Xidmətinin Şəki Sərhəd Dəstəsinin "Laza" sərhəd zastavasında yaradılan xidmət və məişət şəraiti ilə tanış olub.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilər üzrə 6 avqust 2016-cı il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin

## QƏRARI

10 avqust 2016-cı il — Naxçıvan şəhəri

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti Allahverdiyev Əli Kərim oğlunun sədrliyi ilə, Rəyasət Heyətinin üzvləri Qurbanov Yusifəli Süleyman oğlu və Məmmədov Qabil Neymət oğlundan ibarət tərkibdə, Allahverdiyeva Aybəniz Məhəmməd qızının katibliyi,

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhərrəm Əli oğlunun, sədr müavini Qədimov Əli Tofiq oğlunun, katibi Eyvazov Elnur Həsənəli oğlunun, üzvlər Məmmədov Şamxal Şükür oğlunun, Ağayev Arif Qurban oğlunun, Hüseynzadə Əkrəm Rüfət oğlunun və Quliyeva Ceyran Manaf qızının,

Mütəxəssislər Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Məmmədov Məhərrəm Allahverdi oğlunun, Əsgərov Rəhim Əsgər oğlunun və Qurbanov Cavanşir Məmməd oğlunun iştirakları ilə

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə uyğun olaraq konstitusiya icraatı qaydasında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2016-cı il avqust ayının 6-da keçirilmiş əlavə seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi haqqında işə baxaraq hakim Allahverdiyev Əli Kərim oğlunun məruzəsini, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhərrəm Əli oğlunun çıxışını və mütəxəssislərin arayışını dinləyib müzakirə edərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti

**MÜƏYYƏN ETDİ:**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin 2-ci hissəsinin 1-ci bəndinə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8.1-ci maddəsinə və "45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilərin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 iyun 2016-cı il tarixli Sərəncamına əsasən 6 avqust 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş əlavə seçkilərin yekunlarının yoxlanılması və təsdiq edilməsi məsələsinə baxılması üçün səsvermənin ümumi yekunları haqqında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 8 avqust 2016-cı il tarixli SQ-3/2016 nömrəli qərarı və protokolunu (onlara əlavə edilən sənədlərlə birlikdə) 2016-cı il 8 avqust tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə təqdim etmişdir.

Təqdim edilmiş seçkilərin ümumi yekunları haqqında sənədlərdə 6 avqust 2016-cı il tarixdə 45 saylı Aza seçki dairəsi üzrə 16 seçki məntəqəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş əlavə seçkilərin nəticələri öz əksini tapmışdır.

Seçkilərin ümumi yekunları haqqında təqdim edilmiş sənədlərdən məlum olur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilər üzrə 45 saylı Aza seçki dairəsi üzrə passiv seçki hüququ olan 3 nəfər Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən deputatlığa namizəd kimi qeydə alınmışdır.

Səsvermə günü Naxçıvan Muxtar Respublikası üzrə 45 saylı Aza seçki dairəsinin 16 seçki məntəqəsində səsvermə keçirilmişdir.

Seçki sənədləri yoxlanılarkən müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası üzrə Ali Məclisə əlavə seçkilərin keçirilməsi üçün yaradılmış 45 saylı Aza seçki dairəsini əhatə edən 16 seçki məntəqəsi üzrə aktiv seçki hüququ olan 6049 seçici ümumi seçici siyahılarına daxil edilmiş, onlardan 4828 nəfəri, yəni 79,8 faizi səsvermədə iştirak etmişdir. Səsvermədə iştirak etmiş seçicilərin 4828 nəfəri bilavasitə seçki məntəqələrində səs vermişlər. Seçki qutularında aşkar edilən 4828 bülletendən 4764 seçki bülleteni, yəni 98,67 faizi etibarlı hesab edilmiş, 64 bülleten, yəni 1,33 faizi isə etibarsız hesab edilmişdir.

Məntəqələr üzrə seçki günü 1221 ədəd istifadə edilməmiş seçki bülletenləri məntəqə seçki komissiyaları tərəfindən ləğv edilmişdir. Göstərilənlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 88-ci və 89-cu maddələrinin tələblərinə uyğundur.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən tələb edilmiş sənədlərin, habelə cəlb olunmuş mütəxəssislərin arayışının təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə keçirilmiş əlavə seçkilərin nəticələri barədə protokolları, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 8 avqust 2016-cı il tarixli protokolu və onlara əlavə edilmiş sənədlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə cavab verir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə keçirilmiş əlavə seçkilərin yekunları təsdiq edilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti göstərilənlərə əsaslanıb Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsini və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 6 avqust 2016-cı il tarixdə keçirilmiş 45 saylı Aza seçki dairəsi üzrə əlavə seçkilərin nəticələri təsdiq edilsin.

2. Qərar elan olunduğu gündən qüvvəyə minir.

3. Qərar "Şərq qapısı" qəzetində dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan tərəfindən ləğv edilə, dəyişdirilə və yaxud rəsmi təfsir edilə bilməz.

**Sədrlik edən: Əli ALLAHVERDİYEV**

## Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı mühüm tədbirlər həyata keçirilir

***Bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi mövzusunda keçirilmiş müşavirədə İqtisadiyyat Nazirliyinin qarşısına da bir sıra vəzifələr qoyulmuşdur.***

Turizm sektorundakı tərəqqiyə bağlı olan sahələrdən biri də milli sənətkarlıq və suvenir məhsullarının istehsalıdır. Muxtar respublikaya gələn xarici qonaqlar, eləcə də kənd və rayonlarımıza səfər edən yerli, xarici turistlər mənalı istirahətdən yaddaqalan bir xatirə kimi müxtəlif suvenirlər, xalq tətbiqi sənəti nümunələri alıb aparırlar. Bu baxımdan turizm sektorunun inkişafı milli hədiyyə və suvenirlərin istehsalına diqqəti artırmağı zəruri edir.

Muxtar respublikada xalq yaradıcılığının müxtəlif sahələri üzrə fəaliyyət göstərən 40 sənətkarla maarifləndirmə istiqamətində görüş keçirilmişdir. Bu sahə ilə məşğul olan sənətkarlar Akif Həsənov ağac üzərində oyma, Sabir Məmmədov mis üzərində döymə, Fizzə Quliyeva və Həsən Qurbanov duz üzərində oyma və rəssamlıq, Nəsrullah Musayev rəssamlıq, Səriyyə Hüseynova dekorativ-tətbiqi sənət və xalq yaradıcılığı emalatxanasında fəaliyyət göstərən xalçaçı sənətkarlar xalçaçılıq sahələri üzrə kiçikölçülü suvenirlər və hədiyyəlik xatirə əşyaları hazırlamış, onların satışına köməklik göstərilmişdir. Naxçıvan şəhərində fəaliyyət göstərən otellərdə əl işlərinin



sərgi və satışının təşkili, "Əshabi-Kəhf" ziyarətgahında, Duzdağ Fizioterapiya Mərkəzində yerli istehsal məhsullarından və əl işlərindən ibarət mağazaların fəaliyyət göstərməsi turistlərdə muxtar respublikanın mədəni irsi, iqtisadi inkişafı barədə ilkin təəssürat yaradır.

2016-cı ilin ötən dövründə Naxçıvan Biznes Mərkəzi tərəfindən sərgi-satış məqsədilə 165 adda 5139 manat dəyərində əl işi və sənət əsəri qəbul edilmiş, 77 adda 4463 manat dəyərində əl işlərinin satışı həyata keçirilmişdir.

Muxtar respublikada fəaliyyət göstərən 37 ixrac potensiallı müəssisəyə aid 339 çeşiddə məhsulun və 484 ədəd əl işi və sənət əsərinin kataloqu hazırlanmışdır.

Naxçıvan Biznes Mərkəzində iaşə və mehmanxana obyektlərində fəaliyyət göstərən işçilərə obyektlərdə sanitar-gigiyenik norma və qaydalara əməl olunması və xidmət mədəniyyəti ilə bağlı tətbiq olunan beynəlxalq təcrübə haqqında məlumat verilmiş, 21 iaşə obyektində göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması, təqdim edilən menyularda milli yeməklərin çeşidinin artırılması, qiymətlərin hazırlanan yeməklərin kalkulyasiyasına uyğun tətbiq edilməsi və mövcud qanunvericiliyin tələblərinə əməl olunması istiqamətində maarifləndirici monitorinqlər aparılmışdır.

Naxçıvan Muxtar Respublikası beynəlxalq və daxili turizm sərgilərində fəal iştirak edir və turizm sərgiləri ilə özünün sərvətlərini göstərə bilir. Bu cür tədbirlər 2016-cı ilin ötən dövrü ərzində də davam etdirilmişdir. Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində keçirilmiş "Gulfood -2016" beynəlxalq qida sərgisində Babək "Sirab" ASC-nin müxtəlif çeşiddə qazlı və qazsız mineral suları, "Ləzzət Qida Sənaye" MMC-nin unlu-qənnadı məmulatları nümayiş olunmuş, Bakı Ekspo Mərkəzində keçirilmiş "AITF-2016" XV Azərbaycan beynəlxalq turizm və səyahətlər sərgisində "Naxçıvan Biznes Mərkəzi" MMC-nin xalq yaradıcılığı emalatxanasında fəaliyyət göstərən sənətkarlar tərəfindən hazırlanmış əl işləri və sənət əsərlərinin nümayişi təmin edilmişdir.

Muxtar respublikanın bu cür beynəlxalq tədbir və sərgilərdə iştirakının əhəmiyyəti ondan ibarətdir ki, sərgi iştirakçıları Naxçıvanın turizm potensialı barədə ətraflı məlumatlandırılır, turizm mütəxəssisləri arasında təcrübə mübadiləsi aparılır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

Yeni istehsal müəssisələri

# Əlincəçay vadisində çağlayan şəfa bulağı

## Bu bulağın suyu "Darıdağ" əmtəə nişanı ilə satışa çıxarılacaq





***Mobil telefonuma zəng vurub, iş vaxtından sonra onlara gəlməyi xahiş edən Rüstəm: – Dostun Qurban da gəlib, elə bağçada, meyvə ağaclarının altında sizə gözəl bir çay süfrəsi açmışam, – dedi.***

İş vaxtından sonra onlara getdim. Çoxdandır görüşmədiyimiz Qurbanla hal-əhval tutduq. Nə var, nə yox? Nə yaxşı bizləri yada salmısınız? – deyə soruşdum.

Yanında əyləşən qonaqları göstərib: – Səhhətlərində bir az problem var. Fikirləşdim ki, cavanlıqda xəstəlikdən əziyyət çəkdiyim zaman köməyimə çatan Əlincəçay vadisindəki müalicəvi sudan istifadə etsinlər. Bəlkə, bunların da dərdinə əlac olar. Ağızlarda yeni dad, cavanlığa bir qanaddır Darıdağ mineral müalicəvi süfrə suyu, – deyən dostum Qurban xeyli fikrə getdi. Sonra da söhbətini davam etdirdi:

– Gənc yaşlarımda mədə-bağırsaq xəstəliyindən çox əziyyət çəkir, atamla birlikdə o xəstəxana sənin, bu xəstəxana mənim deyib aylarla müalicə kursu keçir, nisbətən rahatlanan kimi, şükür, deyəsən, sağaldım, – deyib dönürdük evə. Təqribən, bir neçə aydan sonra başlanan ağrılar yenidən xəstəxanaya, özü də digər xəstəxanalara müraciət etməyə məcbur edir, sağalmaq ümidimi kəsmirdim. Amma düzünü deyim ki, kimyəvi dərmanları qəbul etməkdən də bezmişdim. Hətta xəstəxanaların birində həkimin atama:

– Ağsaqqal, biz nə lazımdırsa etdik, aparın uşaq bir az evdə dincəlsin. Onun qəbul etdiyi kimyəvi dərmanlar daxili orqanların birinə xeyir edirsə, digərinə də zərər verir, – dediyi sözləri də eşitdim.

Dərdimə əlac olmayacağını düşündüm. Bir azdan palataya dönən atam: – Oğul, yığış gedək, artıq müalicən başa çatıb. Həkim dedi ki, İnşallah yaxşı olacaq, – deyib göz yaşlarını məndən gizlətməyə çalışdı.

Qəriblikdə ata-oğul nə çəkdik, onu bir Allah bilir. Kor-peşman döndük evə. Məni yoluxmağa gələn qonum-qonşu, qohum-əqrəba solmuş bənizimə baxıb, – İnşallah yaxşı olar, müalicədən yenicə qayıtmısan, dərmanlar öz təsirini göstərdikcə gümrahlaşacaqsan, – deyib ürək-dirək verirdilər.

Ertəsi gün bizə gələn nurani bir qoca atama: – Oğul, bu uşağı çox yorma, dədə-babadan bu xəstəlikdən əziyyət çəkənləri Gülüstan kəndinin yaxınlığında yerdən çıxan bulaq suyu ilə müalicə edərdilər. Get o sudan gətir, yeməkdən əvvəl ver bu uşağa içsin. Bir ay keçər-keçməz uşaqda irəliləyiş olar.

– Ağrı imkan verir ki, uşaq yemək yesin, – deyən atamın sözünü kəsən qoca, – o suyu içəndən sonra həm yemək yeyəcək, həm də inşallah xəstəliyindən əsər-əlamət qalmayacaq, – deyib getdi.

Növbəti gün atamın motosikleti ilə yollandıq nurani qocanın dediyi ünvana. Magistral yoldan şəfa bulağınadək avtomobil yolu yox idi. Dərəlik körpüsündən Əlincəçay vadisi ilə, təqribən, 3 kilometr yol getdik. Nəhayət, şəfa bulağına çatdıq. Baxımsız vəziyyətdə idi. Öz axarı ilə quyudan fontan vuran sudan iki butulka doldurub içdim. Özümüzlə götürdüyümüz qabları da doldurub döndük evə. Beləcə, günaşırı bu ümid yolunu gedir, həmin su ilə müalicəni davam etdirirdik. Ayrı yolumuz da yox idi. Uzun illər atamın topladığı pullar da xəstəxanalarda tükənmişdi. Atalar yaxşı deyib: "Allahdan ümid kəsilməz". Elə bizim də ümidimiz xeyirxah insanların vasitəsilə kəsilmədi.

Bir müddətdən sonra həmin xəstəlikdən əsər-əlamət belə, qalmadı. Hətta atam tam arxayın olsun deyə, təqribən, iki ildən sonra müalicə aldığım xəstəxanaları bir-bir gəzdirib məni müayinə etdirdi. Nəticələri görən həkimlər: – Ağsaqqal, bu inanılmazdır. Uşağı harada müalicə etdirmisiniz? – deyib təəccüblə üzümüzə baxdılar.

– Heç, rayonda bulaq var, onun suyu ilə müalicə olunub, – deyən atamı sorğu-suala tutdular. Hətta həmin həkimlərdən və onlara müraciət edən xəstələrdən gəlib müalicə alanlar, şəfa tapanlar da oldu. İndi zaman dəyişib. Eşitdiyimə görə, həmin şəfa bulağında müasir tələblərə cavab verən müəssisə qurulur, – deyən Qurbanın üzünə baxdım.

– Harada? – deyə soruşdum.

– Əlincəçay vadisində.

– Nə vaxtdan başlanılıb? – deyə sualı sualın ardınca verdiyimi görən Qurbanın qardaşı Rüstəm:

– Qardaş, bu jurnalistlərə də söz deməyə peşman olursan, adamı tutarlar sorğu-suala, – deyib xeyli güldü və söhbətinə davam etdi.

– Bakıda yaşayan, böyrək xəstəliyindən əziyyət çəkən qaynım da ötən ildən şəfa bulağının suyundan mütəmadi olaraq istifadə edir. Bu il də gəlmişdi. Birlikdə getdik şəfa bulağına. Orada gördüm ki şəfa bulağında artıq müasir bir müəssisə qurulub.

– Aydındır, arxayın olun, daha heç nə soruşmayacağam, çayınızı rahat için, – dedim.

Beləcə, ertəsi gün dostum Qurbanı və bir çox insanları düçar olduğu ağır xəstəlikdən xilas edən şəfa bulağı və orada aparılan quruculuq tədbirləri barədə ətraflı məlumat almaq üçün Naxçıvan-Culfa magistral avtomobil yolu ilə üz tutduq "Darıdağ" təbii mineral müalicəvi süfrə suyu istehsal edilən müəssisəyə.

Rahat yolla irəliləyən avtomobildə ətrafdakı quruculuq ərməğanlarını seyr edən Qurban dedi:

– Bu cür tikililəri, avtomobil yollarını yalnız röyalarımızda görüb, xəyallarımızda qura bilərdik. Ancaq şükürlər olsun ki, bütün bunları həyatımızda yaşamaq bizə nəsib oldu.

Naxçıvan-Culfa magistral avtomobil yolundan sağa dönüb Əlincəçay vadisinə endik. Təqribən, 3 kilometr getmişdik ki, quruculuq ərməğanlarının təbiət mənzərələri ilə həmahənglik təşkil etdiyi ecazkar bir mənzərə ilə qarşılaşdıq. Darıdağ silsiləsindən olan qırmızı-qonur dağların sinəsində, Əlincəçay vadisində seldən sonra qalan qonur daşların üzərində "yaşıl ada"nı xatırladan sənaye müəssisəsinin qurulduğunun, ətrafında abadlıq işləri aparıldığının, yaşıllıqlar salındığının şahidi olduq. Elə buradaca mütəxəssislərlə görüşdük.

– Əlincəçay vadisində yerləşən şəfa bulağında qurduğunuz yeni istehsal müəssisəsi insanların sağlamlığının bərpasında və qorunmasında mühüm rol oynayan bu qiymətli təbii sərvətimizdən təkcə muxtar respublika sakinləri deyil, ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda, həmçinin xarici ölkələrdə yaşayan, "Darıdağ" təbii mineral müalicəvi süfrə suyuna ehtiyacı olan insanların da istifadəsinə geniş imkanlar açacaq, – deyən mütəxəssisdən yeni istehsal müəssisəsi ilə tanış ola bilərikmi? – deyə soruşdum.

– Əlbəttə, buyurun keçin, – deyə bizi müəssisəyə dəvət etdilər. Mütəxəssislərin dediklərindən:

– "Mineral suların təbii muzeyi" adlandırılan Naxçıvan Muxtar Respublikasında 200-dən çox mineral su mənbəyi mövcuddur. Onlardan biri də Culfa rayonunun Gülüstan kəndi ərazisində çağlayan, Darıdağ silsiləsindən süzülüb gələn mineral sudur ki, bu təbiət möcüzəsi bir çox xüsusiyyətləri ilə qiymətlidir. İlk növbədə, əvəzsiz süfrə suyu olan "Darıdağ" həm də müalicəvi əhəmiyyətə malikdir. Belə ki, mədə-bağırsaq, qaraciyər, öd yollarının xroniki xəstəlikləri, kolit, diabet, böyrək xəstəlikləri, eyni zamanda maddələr mübadiləsinin pozulması və sair xəstəliklər zamanı müalicə məqsədilə istifadə edilir. Bu, elmi əsaslarla sübut olunub və "Darıdağ" təbii mineral müalicəvi süfrə suyunun analizləri aparılan Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun Kurort sərvətlərinin öyrənilməsi şöbəsinin hazırladığı və həmin institutun direktoru, tanınmış alim, professor Əlişir Musayevin təsdiq etdiyi rəydə də öz əksini tapıb.

"Darıdağ" mineral bulağı ötən əsrin 60-cı illərində aşkar edilib. 1961-1962-ci illərdə geologiya-mineralogiya elmləri doktoru Əziz Əsgərovun rəhbərliyi altında bu ərazidə elmi-tədqiqat işləri aparılaraq müxtəlif kimyəvi tərkibli mineral sular sırasında bu bulaqdan istifadə olunması məqsədəuyğun hesab edilib. Dərinliyi 135 metr, sutkalıq debiti 1 milyon 500 min litr olan quyudan fontan vuran, zəif turş mühitə malik minerallaşdırılmış, kimyəvi tərkibinə görə hidrokarbonatlı, maqneziumlu, kalsiumlu, natriumlu, orqonoleptik göstəricilərinə görə rəngsiz, iysiz, şəffaf və çöküntüsüz, quyuda temperaturu 21 dərəcə olan, "Narzan" su qrupuna aid edilən bu sudan qədim zamanlardan bu günədək ayrı-ayrı xəstəliklərin müalicəsində istifadə olunub.

Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısı bu sahədə də öz bəhrəsini verib, şəfa bulağının yerləşdiyi ərazidə ötən ildən yeni istehsal müəssisəsinin inşasına başlanılıb. Artıq burada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana, laboratoriya və kompressor yarımstansiyası olan yeni istehsal müəssisəsi qurulub. Müəssisədə Almaniya, Polşa və Rusiya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal gücü saatda 3 ton olan tam avtomatlaşdırılmış istehsal xətti istifadəyə verilib. Müəssisə şəfa bulağının üzərində qurulduğundan əlavə xətt çəkməyə ehtiyac olmayıb. Hazırda "Darıdağ" təbii mineral müalicəvi süfrə suyu istehsalı müəssisəsində sınaq-yoxlama işləri aparılır. İlkin olaraq 0,5, 1 litrlik plastik taralarda "Darıdağ" tanıtım nişanı ilə muxtar respublikamızda satışa çıxarılacaq bu təbii mineral müalicəvi süfrə suyunun yaxın vaxtlarda ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda da alıcılara təqdim olunması nəzərdə tutulur. Onu da qeyd edək ki, mineral müalicəvi süfrə suyunun müəssisədən kənarda istifadə olunması üçün yeni su xətti çəkilib ki, bu da muxtar respublika sakinlərinin, həmçinin regionumuza gələn qonaqların bu sudan sərbəst şəkildə istifadə etməsinə əlverişli şərait yaradıb. Elə orada olduğumuz müddətdə biz də bunun şahidi olduq. Şəfa bulağına üz tutanlar arasında ölkəmizin ayrı-ayrı regionlarından, hətta xarici ölkələrdə müalicə alan və həmin səhiyyə müəssisələrinin verdiyi təyinata uyğun olaraq bu şəfa bulağına üz tutanlar, "Darıdağ" təbii mineral müalicəvi süfrə suyundan istifadə edib sağlamlığına qovuşanlar və ya onların bələdçiliyi ilə bu ünvana yenicə müraciət edənlər də var idi.

Biz də şəfa bulağının başına toplaşan insanların hər birinə Allahdan şəfa diləyib üz tutduq redaksiyaya. Məqaləni hazırlayarkən iş yoldaşım: – Mənim də qohumum bu şəfa bulağının suyu ilə müalicə olundu. Öd kisəsində olan daşdan xilas olub sağlamlığına qovuşdu, – dedi.

İnanırıq ki, Naxçıvana gəlmək imkanı olmayan xarici ölkə vətəndaşları da yaxın vaxtlarda şəfa bulağının suyundan istifadə etmək imkanı qazanacaq. Dünya bazarının mühüm mərkəzlərindən biri olan Dubayı fəth edən "Badamlı", mineral sular ixracatçısı Rusiya və Türkiyə bazarında özünəməxsus yer tutan "Sirab" kimi, "Darıdağ" təbii mineral müalicəvi süfrə suyunu da, necə deyərlər, elə qapılarının ağzında alacaqlar.

✍ **Kərəm HƏSƏNOV**

Kənd turizmi

# Yay fəslində Badamlıda istirahətin öz yeri var



***Hələ ötən əsrin 50-ci illərindən bu günə qədər "Badamlı" mineral suyu süfrələrimizin bəzəyi olub, "Badamlı" mahnısı isə ürəkləri fəth edib. Dağlar diyarı Şahbuzun Batabatı ilə bərabər, onun Badamlısı da hələ onillər öncəsindən bir brend kimi Naxçıvanın adını bütün dünyaya tanıdıb. İndi çox vaxt, xüsusən yaz və yay aylarında Şahbuza gələrkən Badamlı yolayrıcına çatdığımızda Heydər Əliyev Su Anbarının möhtəşəm görüntüsünə göz kəsilmiş qonaqlara – bax bu həmin haqqında eşitdiyiniz kənddir, – deyə uzaqdan görünən dağların qoynunu işarə edirik. Ancaq Badamlı lap yaxında, Naxçıvan-Şahbuz avtomobil yolundan cəmi 7 kilometr məsafədə özünün bütün gözəllikləri və sakinlərinin müasir həyat tərzi ilə onun sorağına gələn qonaqları qarşılamağa hazırdır. Burada kənd turizmi üçün əlverişli imkanlar vardır.***

Muxtar respublikamızda kənd infrastrukturunun müasir səviyyədə tamamilə yenilənməsi, kəndlərin abadlığı, təmizliyi və əhali gəlirlərinin artması burada müasir turizmin bir çox növlərinin inkişafı üçün də şərait yaradır. Söhbət kənd turizmindən düşmüşkən, Badamlının Naxçıvan və Şahbuz şəhərlərinə olan yaxın məsafəsi, kəndin yerləşdiyi geniş ərazi və buraya gələn qonaqların rahat asudə vaxt keçirə biləcəyi yaşıllıq guşələri, ilk növbədə, diqqəti cəlb edir. Ona görə də "Badamlı" deyəndə insanların ağlına ilk olaraq mineral su gəlsə də, bu kənddəki yaşıllıqlar içində istirahət edib mənalı vaxt keçirmək haqqında danışmağa dəyər. Doğrudan da, ilin bu fəslində səhərdən axşamadək buz bulaqların başında ailəvi istirahət edib mənalı vaxt keçirməyin ayrı bir ləzzəti vardır. Xüsusən Badamlıya ilk dəfə gəlmiş qonaqların Yemişandərədə, Ordubulağı, Fərəməz bulağında keçirdikləri bir gün şəhərdəki bütün yayın istisini unutdurmağa bəs edər. Qonaqlar Şirandaş şəlaləsinə baş çəkərsə, indiyə qədər görmədikləri gözəlliklərə şahid olarlar.

Badamlı camaatı qonaqpərvər olduğu qədər də işgüzardır. Yerli əhali kəndin təbii sərvətlərindən istifadə edib məhsul istehsal etməkdə, təsərrüfatı genişləndirməkdə çox səriştəlidir. Kənddə çox sayda işgüzar, bacarıqlı torpaq mülkiyyətçisi və fermer olduğunu dedilər. Xüsusən Badamlı balının keyfiyyətini onun daimi alıcıları yaxşı bilir. Kənddə yaşayanlar yaxşı bilirlər: sərin keçən yay gecələrində qalın yorğana bürünüb daş kimi yatıb dincələndən sonra səhər erkəndən yaxşıca səhər yeməyi iştahası gəlir adama. Badamlıda da iri badam ağacının kölgəsində qurulmuş təmtəraqlı səhər yeməyi süfrəsində ətirli Badamlı balıynan ağbirçək Tamara nənənin ev üsulu ilə hazırladığı qaymağı dadmağın başqa ləzzəti vardır.

Badamlı bağlar diyarıdır. Şübhəsiz, kəndin adına, onun toponiminə qədər nüfuz etmiş qiymətli badam meyvəsi mineral su qədər bu kəndin sərvətlərindəndir. Badamlıda badamı çox sevir, süfrə başındakı qonaqlara badam ləpəsinin ən seçməsi təklif olunur, uşaqlara badam payı göndərmək üçün əvvəlcədən iri torbalar hazırlanır. Bizdə boldursa, qoy hamının süfrəsində olsun, – deyirlər. Onu da deyirlər ki, badam uzunömürlü ağacdır, susuzluğa davamlı, gec quruyandır. Amma Badamlıda yeni bağlar da salınır. Püstə-badam, daşbadam sortları əkilmiş yeni bağlar diqqətimizi cəlb edir. Kənddəki 180-ə yaxın evin hamısının həyətində bu ağaclardan vardır. Ancaq təkcə badamı deyil, dadlı üzümü, armudu, cəvizi ilə də tanınan Badamlıya gələn şəhərli turistlər Şahbuzun bu gözəl kəndində bağlara necə qulluq edilməsi, kənd təsərrüfatı işləri ilə yaxından tanış olmaq fürsəti qazanarlar. Əgər qonaqlar səhərin sübhündə kəndin gündoğdusundakı Qaradağın zirvəsinə yürüş keçirmək istəsələr, badamlılı gənclər onlara həvəslə bələdçilik etməyə hazırdırlar. Ümumiyyətlə, dağlara yürüş, ətraf relyefin ecazkarlığı ilə tanış olmaq kənd turizminin əsas tərkib elementlərindən biridir. Badamlıda da bu məzmunda görməyə dəyər ekzotik yerlər çoxdur. Kənddəki minik avtomobilləri turistlərin bu tələbinin ödənilməsinə xidmət edə bilər. Turistlərin yerləşdirilməsinə gəldikdə isə Badamlıda 20-dən artıq villatipli evlərdə bu məsələnin həll olunacağını düşünmək olar.

*Təbiət Şahbuzdan heç nəyi əsirgəməyib. Qaynayan şəfalı bulaqlar, yamyaşıl bağlar, mülayim iqlim. Şahbuza yolu düşənlərin təəssüratlarından heç zaman silinməyəcək səmimi qonaqpərvərlik isə onun bu sərvətlərini hər kəslə paylaşır. Bu dəfə isə yolumuz Badamlıya düşmüşdü.*

✍ **Əli CABBAROV**

Axtarışlar, tapıntılar

# Şairə Qonçabəyim Kəngərli haqqında bildiklərimiz və bilmədiklərimiz

***XVIII-XIX yüzilliklərdə ədəbiyyat tarixində də mühüm hadisələr baş verib. Naxçıvan xanlığının müstəqil fəaliyyət göstərdiyi illərdə Kəngərli xanları xanlığın hərtərəfli inkişafında söz sənətinin də inkişafına qayğı göstəriblər. Elə bu illərdə Naxçıvanda aşıq ədəbiyyatının – dastanların öyrənilməsi, söylənilməsi haqqında məlumatlar vardır. Ən qədim türkçülük milli adət-ənənələrini yaşadan kəngərlilər mahir döyüşçü olmaqla, həm də şair, musiqiçi və təbib olmuşlar. Əgər biz xanlıq dövrünə aid sənədləri diqqətlə araşdırsaq bunun canlı şahidi olarıq. Amma Sovet hakimiyyəti illərində xanlıq dövründə Naxçıvan ədəbi mühiti öyrənilmədiyindən yaranan boşluq indinin özündə də lazımınca öyrənilməyib. Çox yaxşı haldır ki, XIX yüzillikdə Naxçıvanda və Ordubadda fəaliyyət göstərmiş şeir məclisləri haqqında tədqiqatlar vardır. Elə bu tədqiqat əsərlərindən öyrənirik ki, Naxçıvanda "Qonçeyi-ülfət" ədəbi məclisinin səsi-sorağı Qafqazın hər yerinə gedib çatıb. Çünki o vaxtlar Qafqazın mərkəzi Tiflis şəhəri idi. Tədqiqatçıların yazdıqlarından məlum olur ki, dövrünün tanınmış şairlərindən biri də naxçıvanlı Qonçabəyim olub.***

Ədəbiyyatşünas Salman Mümtazdan başlamış bir sıra tədqiqatçılar "bəyim" təxəllüslü naxçıvanlı şairədən söhbət açsalar da, onun haqqında geniş məlumat verə bilməyiblər. Buna əsas səbəb Sovet hakimiyyəti illərində XVIII və XIX əsrlərə aid sənədlərin bağlı arxiv fondlarında olması idi. Ancaq 1920-ci ildə çoxlu ağsaqqal və ağbirçəklər sağ idi və onlardan məlumatlar almaq mümkün idi. Lakin 1969-cu ilədək belə yazılara rast gəlinmir. Olanlar da bir-birini təkrarlayır.

1969-cu ildə "Elm və həyat" jurnalında ədəbiyyatşünas alim, tərcüməçi Dilara Əliyevanın "Qonçabəyim" adlı məqaləsi çap olunmuşdur. Biz onda orta məktəbdə oxuyurduq. O məqaləni indiyədək saxlayıram. Müəllif bu məqalədə maraqlı axtarışlarının nəticəsi kimi şairə Qonçabəyimin naxçıvanlı Ehsan xanın qızı olmasını yazmışdı. Onun yazdığından məlum olur ki, bu işdə ona şair M.Nəsirli və L.Hüseynzadə köməklik ediblər. 2002-ci ilədək biz də bütün yazılarımızda onun Ehsan xanın qızı olduğunu yazmışıq, təbliğ etmişik. Hətta bu yazının müəllifi 1983-cü ildə "Könül ahı" adlı hekayə də yazıb.

Amma 2004-cü ilin yayında olan ciddi bir söhbətdən sonra biz yenidən Qonçabəyimin şəxsiyyətini təyin etmək üçün Naxçıvanda və Tiflisdə araşdırmalar aparmağa başladıq. Biz Naxçıvan xanlarının şəcərəsinin ilkin variantında (2002) şairə Qonçabəyimi Ehsan xanın qızı kimi göstərmişdik. Lakin 2004-cü ildə Moskvada şəcərəni görən rusdilli tədqiqatçılar ciddi etiraz etdilər və Qonçabəyimin Ehsan xanın qızı olmasını təsdiqləyən sənədi istədilər. Təkrar araşdırmalardan sonra iki-üç yazı yazdıq və məsələyə aydınlıq gətirdik. Və şəcərədə Qonçabəyimi Ehsan xanın qızı kimi göstərmədik.

Naxçıvanda Xan sarayında nümayiş olunan şəcərəyə baxan qonaqlar və elm adamları buna müəyyən qədər narazılıq etdiklərindən biz yenidən bu məsələyə qayıtdıq ki, qaranlıq heç nə qalmasın.

Qonçabəyim dövrünün tanınmış şairəsi olub. Kimsə bunu inkar edə bilməz. Bunu təsdiqləyən sənəd böyük gürcü şairi Nikoloz Barataşvilinin məktubudur. O, ömrünün son illərində Naxçıvanda və Gəncədə yaşayıb və hər iki şəhərdə mahal rəisi yanında məmur vəzifəsində çalışıb.

Ədəbiyyatşünas alim D.Əliyeva yazır: "Şairə Qonçabəyim haqqında ilk məlumatı biz məhz Barataşvilinin 1845-ci ildə Naxçıvandan dayısı qızı Maiko Orbelaniyə yazdığı məktubdan alırıq: "İndi Naxçıvanda Qonçabəyim adında on səkkiz yaşlı bir qızın mahnıları məşhurdur. O, xan qızıdır, çox gözəl və cazibədardır. Yazıq öz ərindən yanıqlıdır, ondan ayrılmaq istəyir. Binəvanı 12 yaşında ikən ərə vermişlər. Əgər onların həyatını bilsəydiniz gözəl bir romandır".

Nikolozun məktubundan görünür ki, o, şairə Qonçabəyimin həyatını yaxşı öyrənibmiş.

Yenə də Nikolozun dayısı qızına yazdığı məktubdan öyrənirik: "Əziz




bacım Maiko! Çox təəssüf ki, bütün hadisələrlə səni tanış edə bilməyəcəyəm, ancaq ər-arvadı barışdırdım".

Romantik gürcü şairi N.Barataşvili Qonçabəyimin Ehsan xanın qızı olmasını yazmamışdır.

Bizim tədqiqatçılar özləri belə nəticəyə gəliblər ki, həmin dövrdə Naxçıvanın xanı Ehsan xan olub.

Tədqiqatçı alim D.Əliyeva yazır ki, biz Əsəd ağa Kəngərlinin albomunda Qonçabəyimin fotoşəklinə rast gəldik. Qeyd edək ki, biz də bir-iki il bundan əvvəl həmin alboma baxdıq. Çox maraqlı və tarixi albomdur. Amma o fotoşəkildə Qonçabəyimin Ehsan xanın qızı olmasını təsdiqləyən heç bir qeyd yoxdur.

Naxçıvan xanlarının Moskvada yaşayan tədqiqatçısı F.Nağdəliyev yazdığı monoqrafiyada naxçıvanlı şairə Qonçabəyim haqqında heç nə yazmayıb. Amma ona aid edilən fotoşəkli kitabında verib. XIX yüzillikdə çəkilmiş fotosunun neqativini verib. Artıq burada onun xan qızı olmadığını təsdiqləyən fakt var: fotoşəkil çəkildiyi atelyedə şəklin aşağısında iki dildə yazılıb: Naxçıvanskaya tatarskaya bekşa.

Bu neqativin bir sıra muzeylərdə 1890-cı ilə aid olduğu haqda məlumatlar var. 1890-cı ili 1845-ci ildən 45 il ayırır. Deməli, bu fotoşəkil Nikolozun təsvir etdiyi ola bilməz. Çünki bu foto dünyanın, xüsusən Avropanın muzeylərində yuxarıda yazdığımız kimi təqdim edilir. Əgər o, zadəganlara məxsus saray fotoatelyesində çəkilsəydi, hökmən, "Naxçıvanskaya tatarskaya xanşa" yazılacaqdı. XIX əsrdə belə qanunlar dəbdə idi. Kimsə cürət edib onu poza bilməzdi. Biz həmin fotonu qəzetimizdə olduğu kimi dərc edirik.

Axtarışlar zamanı aydın oldu ki, kameral siyahılarda Ehsan xanın qızlarının adları Sonabəyim və Lalabəyim kimi yazılıb. 1845-ci ildə Sonabəyimin yaşı 18-dən çox idi. Sonabəyim çox cazibədar və şairə olub. Arxiv sənədlərindən öyrənirik ki, o, məcburən qarabağlı qoca şair Məhəmməd bəy Cavanşirlə ailə qurub. Onun haqqında ədəbiyyatçıalim Ənvər Çingiz oğlu araşdırmalar aparıb. Hətta onun yazdığına görə, Sonabəyimin varisləri Zəngilandan Bakıya köçüblər. O, Sonabəyimin yazdığı şeirlərdən də çap edib. Üslub oxşarlığı var. Sonabəyimin taleyi eynilə Nikolozun yazdığı kimidir. Ancaq Nikoloz adı dəqiq yazıb: Qonçabəyim. Bəlkə, evdə Sonabəyimə Qonçabəyim deyirmişlər?! Hər halda ciddi axtarışa ehtiyac duyduq.

Bunun üçün Tiflisdəki Gürcüstan Milli Arxivində axtarışlarımızı daha da dərinləşdirdik. Burada bir maraqlı sənədə rast gəldik. Bu sənəd bəzi məsələlərə aydınlıq gətirə bilər. 14 iyun 1833-cü ildə quberniya katibi V.Zolotnitskinin Qafqaz canişini general-adyutant və kavaler Baron Rozenə ünvanladığı məlumatda Qonçabəyimin Paşa bəyin qızı olduğu yazılıb. Quberniya katibi hazırladığı məlumata Naxçıvan əyalətində və Ordubad mahalında kəndlərin kimlər tərəfindən idarə edildiyini göstərən maraqlı cədvəl də daxil edib (təxminən, 39 səhifəlik). Bütövlükdə, sənəd cəmi 86 səhifədir. Onu da deyək ki, sənəd "tamamilə məxfidir" qrifli işlərə aiddir.

74-cü səhifədə isə Qonçabəyimin və bacısı Ağabəyim xanımın adları yazılıb. Həm də göstərilib ki, ataları Paşa bəy Kəngərli vəfat edib. Bu səhifədə həmçinin qeyd edilib ki, qızlardan biri polkovnik Ehsan xanın oğluna nişanlıdır. Elə bu işin 73-cü səhifəsində yazılıb ki, Baş Camaldın və Ayaq Camaldın (yəqin ki, Aşağı və Yuxarı Camaldın – müəllif) kəndlərinin mülkədarları polkovnik Ehsan xan və Paşa bəydir. Məlumatda Paşa bəyin Ehsan xanın şəriki olduğu da qeyd edilib.

Ordubad ədəbi mühitinin məşhur şairlərindən olan Qüdsi Vənəndi şairə Qonçabəyimə xüsusi məktubtərifnamə yazıb. O qeyd edib ki, bunu sərkar Fərrux ağanın arzusu ilə yazmışdır. Fərrux ağa Novruz ağa Kəngərlinin oğludur. Bizcə, Qonçabəyim Ehsan xanın qızı olsaydı, Qüdsi Vənəndi ona tərifnamə yazmağa cürət etməzdi. Ehsan xanın qızı Lalabəyimin 1846-cı ildə 6 yaşı varmış. Onda 1827-ci ildə doğulan Qonçabəyim Lalabəyim ola bilməz.

Ehsan xan vəfat edəndə (1846) Rusiya Hərbi Nazirliyi yenidən onun övladlarının siyahısını çap edib. Ehsan xanın qızları Sonabəyim və Lalabəyim kimi yazılıb. Buna görə biz şəcərəyə ancaq Sonabəyim və Lalabəyimin adlarını yazmışıq. Söykənəcəyimiz fakt yoxdur ki, Qonçabəyimi Ehsan xanın qızı olduğunu göstərək. Yuxarıda yazdığımız bu variantlar əsasında ciddi axtarışlar aparmalıyıq. Həm də gürcü şairi N.Barataşvilinin Tiflisdəki ev-muzeyində axtarışları davam etdirməliyik. Ciddi və hərtərəfli axtarışlar şairə Qonçabəyimin şəxsiyyətini doğru-düzgün təyin etməkdə bizə köməklik edər. Sənədlərdə adı qeyd edilən Paşa bəy Kəngərli II Kərim Sultanın oğlu Hacı Vəlibəyin varislərindəndir. Yəqin ki, hərtərəfli axtarışlar şairə Qonçabəyimin həyatını və yaradıcılıq fəaliyyətini üzə çıxaracaqdır.

*Bir sıra məsələlər var ki, onları burada yazmırıq. Çünki axtarışlar davam edir. Ümidliyik ki, şairə Qonçabəyim haqqında gələcəkdə oxucularımızı yeni məlumatlar çatdıracağıq.*

**Musa QULİYEV**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

# Kültəpədə arxeoloji qazıntılar davam edir

***Bir neçə gündür, AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası Fransa Milli Araşdırmalar Mərkəzinin arxeoloqları ilə birlikdə I Kültəpə yaşayış yerində tədqiqat işlərinə başlayıb.***

Tədqiqat işləri 400 kvadratmetrlik ərazidə davam etdirilir. Arxeoloji tədqiqatlarla yanaşı, Kültəpə yaşayış yeri ətrafında arxeoloji araşdırmalar da aparılmaqdadır. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevdən aldığımız məlumata görə, ekspedisiyanın əsas məqsədi Neolit dövrünün sonuna aid olan I Kültəpə yaşayış yerində məskunlaşmanın tarixi və qədim Naxçıvan sakinlərinin ətraf aləmlə əlaqələrini öyrənməkdən ibarətdir. Tədqiqatlar göstərir ki, Kültəpə və onun ətrafında yaşayan insanlar əkinçiliklə və köçəri maldarlıqla məşğul olublar. Köçəri maldarlıq insanların müxtəlif faydalı qazıntılar, o cümlədən mislə tanışlığına səbəb olub. Araşdırmalara əsasən, demək olar ki, Eneolit dövrünə aid köçəbə yaşayış yerləri məhz qədim Naxçıvan sakinlərinin Zəngəzur dağlarının zəngin metal yataqlarına gedən yollar üzərində salınıb. Ötənilki araşdırmalar zamanı bu köçəbə yaşayış yerlərinin bir qismi kəşf edilib. Bu il digər yaşayış yerlərini müəyyənləşdirmək və qədim kommunikasiya xətlərinin keçdiyi yerləri təsbit etmək ekspedisiyanın əsas vəzifələrindən biridir.

Qeyd edək ki, builki araşdırmalar ölkəmizin qədim sakinlərinin miqrasiyalarının arealını, onların qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənməyə imkan verəcəkdir.

**Sara ƏZİMOVA**

*İnsanın sosial varlığa çevrilə bilməsi üçün o, passivlikdən qurtularaq dinamik bir həyat yaşamalıdır. Bu dinamik həyatın ilkin şərtləri hər bir sahədə təşəbbüskarlıqla başlayır. Təhsil sahəsində təşəbbüskarlıq təhsilin inkişaf etdirilməsi, onun standartlarının müasir dövrümüzün tələblərinə uyğun şəkildə qurulması, təhsildə yeni nailiyyətlərin əldə edilməsi üçün yeni fikir və ideyaların irəli sürülməsidir. Müasir dövrdə elm və təhsilin inkişafı həm də yeni, praqmatik və yerli şəraitə uyğun olan təşəbbüskar fəaliyyətlə bağlıdır. Bu təşəbbüskarlıq fəaliyyətləri içərisində layihələr, proqramlar, elmi-pedaqoji seminarlar xüsusi əhəmiyyətə malikdir.*

# Təhsildə təşəbbüskarlıq gələcəyə doğru atılan addımdır

Təhsil millətin gələcəyidir. Məhz bu səbəbdən də bu sahədə faydalı olan yeni fikir və təşəbbüskar ideyalar dövlət tərəfindən dəstəklənir. Tarixi təcrübə göstərir ki, elm və təhsil sahəsinə xüsusi diqqət göstərən ölkələr yüksək inkişaf səviyyəsinə çatıblar. Təhsilin inkişafında dövlətlə birlikdə təhsil alanların – tələbələrin, şagirdlərin, elmi-pedaqoji fəaliyyətlə məşğul olan ziyalıların da rolu böyükdür. Məhz bu prizmadan yanaşdıqda cəmiyyətin dövlətlə birlikdə təhsil sahəsində mütərəqqi fikirlərin ortaya çıxmasında fəallığı özünəməxsus dəyərə malikdir. Təəssüflər olsun ki, bəzən cəmiyyət bu məsələdə lazımi həssaslığı göstərmir, tələbə kontingenti onlar üçün yaradılmış şəraitdən düzgün istifadə etmir, informasiya-kommunikasiya texnologiyalarından səmərəli şəkildə bəhrələnmir.

Psixoloji tədqiqatlarla müəyyənləşdirilib ki, gənclərdə bəzən elm, texnika, idman, ədəbiyyat yenilikləri haqqında məlumatlar heç də yaşlılardan az deyildir, hətta bəzən bu sahədə onların məlumatları daha da geniş olur. Çünki onlar ictimaifaydalı əməyə can atır, onun praktik əhəmiyyətini, eləcə də özünütəsdiq vasitəsi rolunu oynamasını dərk edirlər. Deməli, gənclər istənilən sahədə təşəbbüskarlıq göstərərək cəmiyyətə faydalı fikir sahibləri ola bilərlər. Bəs gəlin görək, hal-hazırda gənclərimiz təhsil sahəsində təşəbbüskar olub, hansı bir fikri irəli sürüblər?

Özüm də tələbə olduğumdan, ilk növbədə, cəmiyyətin bu kateqoriyasından olan gənclərin fəaliyyətləri ilə maraqlanmağa başladım. Universitet daxilində tələbə elmi cəmiyyəti, tələbə-gənclər təşkilatı fəaliyyət göstərir. Tələbələrin bilik və dünyagörüşlərinin artmasında bu təşkilatlar böyük xidmət göstərə bilərlər və göstərməlidirlər.

Doğrusu, təhsil aldığım Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tələbələrinin universitet daxilində fəaliyyət göstərən bu təşkilatlarda necə iştirakını, hər hansısa yeni bir layihəyə imza atıb-atmadıqlarını öyrənmək istəsəm də, buna müvəffəq ola bilmədim. Çünki fakültədə təşkilatın fakültə üzrə rəhbərləri nəinki müəyyən bir layihədə təşəbbüskarlıq etmirlər, hətta öz öhdələrinə düşən vəzifəni belə, layiqincə yerinə yetirmirlər.

Buna baxmayaraq, yaxın bir ildə musiqi sahəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tələbəsi Ələsgər Cəlilzadə, Naxçıvan Musiqi Kollecinin tələbəsi Səkinə Quliyeva və sair istedadlı tələbələr təşəbbüskarlıq edərək muxtar respublikada öz solo konsertlərinin keçirilməsinə müvəffəq olublar.

Digər bir ali təhsil ocağında – Naxçıvan Müəllimlər İnstitutunda tələbələrin təşəbbüskarlığı ilə hər həftə təşkil olunan diskussiyalar da təqdirəlayiqdir. Belə ki, diskussiyada müxtəlif mövzular barədə müzakirələr aparılır, nəticədə, bu da onların dünyagörüşlərinin artmasına, yanlış düşüncələrinin yeni, doğru yön almasına gətirib çıxarır. İnstitutun tələbəsi Dilbər Abdullayeva bütün diskussiyalarda iştirak etdiyini, fikirlər irəli sürdüyünü, gələcəkdə istər iş, istərsə də şəxsi həyatlarında bu məsləhətlərin gərəkli olduğunu bildirdi. Bu layihənin aparıcı qüvvəsi olmağı çox istədiyini bildirən Dilbər hələlik, sadəcə, dinləyici rolunda çıxış etdiyini və yeni tədris ilində bu məqsədi yönündə çalışacağını da qeyd etdi.

Bax budur, təşəbbüskar olmağın ilkin şərti: bacardığını etmək yox, bacardığından daha yaxşısını etməyə səy göstərmək. Təkcə gənclər deyil, bütün vətəndaşlar təşəbbüskar olmalıdırlar. İnsanların içindəki təşəbbüskarlıq bir gün üzə çıxacağı günü gözləyir. Həmin gün öz səylərimiz nəticəsində təqvimdə yaxın etmək də bizim əlimizdədir. Təşəbbüskar və güclü təfəkkürə malik gənclər ölkənin və xalqın gələcəyidir. Vaxt dayanmaq vaxtı deyil, çalışmaq vaxtıdır...

**Fatma BABAYEVA**

## Sağlamlıq imkanları məhdud uşaqlar

### “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olublar

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”na uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müxtəlif tədbirlər təşkil edilir.*

Avqustun 9-da adıçəkilən nazirliyin təşkilatçılığı ilə eşitmə qabiliyyəti məhdud 10 uşaq “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olub.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin direktoru Ramin Səfərov muxtar respublikada eşitmə imkanları məhdud uşaqlar üçün Bakıdan dəvət olunmuş müəllim tərəfindən kurs keçirildiyini diqqətə çatdıraraq hər il təşkili ənənə halını almış kursun bu illik dərs müddətinin sona çatdığını bildirdi. Lakin



buna baxmayaraq, həftədə 4 dəfə olmaqla skayp üzərindən dərslər davam etdiriləcək.

Təşkil edilmiş kursun müəllimi Zərqələm İsmayılova bizimlə söhbətdə eşitmə qabiliyyəti məhdud uşaqlara dərs keçmək məqsədilə Naxçıvana gəldiyini, 1 ay ərzində 10 uşaqla daimi məşğul olduğunu bildirdi. Qeyd etdi ki, kursun sonunda bir çox muzeylərdə olmağı planlaşdırsalar da, ilk olaraq, buraya, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gəliblər. Uşaqların milli-mənəvi dəyərləri mənimsəməsi, onların tarixi-memarlıq abidələrini öyrənmələri baxımından bura mühüm əhəmiyyət kəsb etməklə yanaşı, belə gəzintilər həm də onların sevincinə səbəb olur.

Zərqələm İsmayılovadan xahiş etdik ki, eşitmə qabiliyyəti məhdud uşaqların birindən gəzintidə olduğu məkan haqqında təəssüratını öyrənib bizə bildirsin. Zərqələm müəllim Bayram Məhərrəmovla söhbətdən sonra onun təəssüratlarını bizimlə bölüşdü:

– Bayram deyir ki, ilk dəfədir, buraya gəlirəm. Televizorda belə mövzuda verilişləri daim izləsəm də, heç nə başa düşmürdüm, həmin verilişləri səssiz film kimi izləyib, sadəcə, gördüklərim ilə kifayətlənməli olurdum. Lakin bu gün bizi başa düşən və ən əsası da başa salan biriylə buraya gəlməyimiz tək mənim deyil, bütün yoldaşlarımın sevincinə səbəb olub. Əvvəl, sadəcə, görməklə kifayətlənmək məcburiyyətində qaldığımız Naxçıvanqala haqqında bu gün dolğun məlumatlar aldıq. Deyilənə görə, bundan sonra başqa muzeylərə də gedəcək, muxtar respublikanın tarixi abidələri ilə tanış olacağıq. Bizim üçün bu şəraiti yaradanlara minnətdarlığımızı bildiririk.

Qeyd edək ki, eşitmə eşitmə qabiliyyəti məhdud məhdud uşaqlar üçün videokitablar hazırlanır ki, bunlar da qısa vaxt ərzində onların istifadəsinə veriləcək.

✍ **F.BABAYEVA**

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

*Muxtar respublikamızda iyul ayında epidemioloji vəziyyət sabit olub, zəhərlənmələr baş verməyib, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilib.*

Yenidoğulmuş uşaqların 96,8 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd alıb. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilib, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, məişət tullantıları qoyulan meydançalarda 29 min 421 kvadratmetr dezinfeksiya və 33 min 410 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilib.

Kəskin respirator və digər infeksion xəstəliklərin qarşısının alınması məqsədilə bütün ictimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində, həmçinin Naxçıvan Beynəlxalq Hava Limanında profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilib. Muxtar respublikaya xarici ölkələrdən gələn sərnişinlər üzərində xəstəliyə şübhəli hərarətli şəxslərin aşkar olunması üçün uzaq məsafədən ölçən termometr sistemləri vasitəsilə bütün gömrük məntəqələri və hava limanında vətəndaşlar üzərində vizual müayinə aparılması təmin olunub. Həmçinin bütün regional gigiyena və epidemiologiya mərkəzləri tərəfindən həftədə iki dəfə su və torpaq nümunələri Xüsusi təhlükəli infeksiyalar laboratoriyasına göndərilib.

Ay ərzində Bakterioloji laboratoriya fəaliyyətini davam etdirib, 207 su, 254 yuyuntu və 1304 digər nümunələrin müayinələri aparılıb.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılıb, səhiyyə üzrə 372, təhsil üzrə 61, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 240, kommunal sahələr üzrə 106, sürücülük üzrə 23 nəfər olmaqla, bütövlükdə, 802 nəfər müayinədən keçib.

Sanitariya-kimyəvi laboratoriyalar şöbəsinin Qidalanma gigiyenası laboratoriyasında 24 nümunədə 36 müayinə aparılıb, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 3 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilib.

Kommunal gigiyena laboratoriyasında 18 nümunədə 89, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 6 nümunədə 11 müayinə aparılıb.

Əhalinin sanitariya sahəsində maarifləndirilməsi məqsədyönlü şəkildə həyata keçirilib, 31 mühazirə oxunub, tibbi şurada 5 məsələ müzakirə edilib.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılıb, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün xəbərdarlıqlar edilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər və bərbər-manikürçü peşəsi üzrə kurslar təşkil edir.

Tədrisin müddəti 3 aydır.

Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| | Kəndin adı | Vakant yer | |
|---|---|---|---|
| | | **Bərbər** | **Bərbər-manikürçü** |
| | ***Naxçıvan şəhəri üzrə*** | | |
| 1. | Qaraçuq | - | 1 |
| | **Cəmi:** | **0** | **1** |
| | ***Şərur rayonu üzrə*** | | |
| 1. | Yuxarı Aralıq | 1 | 1 |
| 2. | Püsyan | 2 | 2 |
| 3. | Xanlıqlar | 2 | - |
| 4. | Danyeri | 2 | 1 |
| 5. | Diyadin | 1 | - |
| 6. | Şahbulaq | 1 | - |
| 7. | Cəlilkənd | 1 | - |
| 8. | Muğancıq-Mehrab | - | 1 |
| 9. | Qarxun | - | 1 |
| 10. | Aşağı Daşarx | - | 1 |
| 11. | Çomaxtur | - | 1 |
| 12. | Axura | - | 1 |
| 13. | Sərxanlı | - | 1 |
| 14. | Aşağı Yaycı | - | 1 |
| 15. | Mahmudkənd | - | 1 |
| 16. | Dəmirçi | - | 1 |
| 17. | Qorçulu | - | 1 |
| 18. | Yengicə | - | 2 |
| 19. | Maxta | - | 1 |
| 20. | Kürkənd | - | 1 |
| 21. | Yuxarı Daşarx | - | 1 |
| 22. | Kürçülü | - | 1 |
| | **Cəmi:** | **10** | **20** |
| | ***Babək rayonu üzrə*** | | |
| 1. | Qahab | 1 | 1 |
| 2. | Kərimbəyli | 1 | 1 |
| 3. | Şıxmahmud | - | 1 |
| | **Cəmi:** | **2** | **3** |
| | ***Ordubad rayonu üzrə*** | | |
| 1. | Biləv | - | 1 |
| 2. | Parağa | 1 | - |
| 3. | Bist | 1 | 1 |
| 4. | Ələhi | 1 | - |
| 5. | Nürgüt | 1 | 1 |
| 6. | Nəsirvaz | 1 | 1 |
| 7. | Xurs | 1 | 1 |
| 8. | Behrud | - | 1 |
| 9. | Çənnəb | - | 1 |
| 10. | Əylis | - | 1 |
| | **Cəmi:** | **6** | **8** |
| | ***Culfa rayonu üzrə*** | | |
| 1. | Gal | 1 | - |
| 2. | Boyəhməd | 1 | - |
| 3. | Saltaq | 1 | - |
| 4. | Ləkətağ | - | 1 |
| 5. | Teyvaz | - | 1 |
| | **Cəmi:** | **3** | **2** |
| | ***Şahbuz rayonu üzrə*** | | |
| 1. | Sələsüz | 1 | 1 |
| 2. | Badamlı | 1 | - |
| 3. | Nursu | 1 | 1 |
| 4. | Kolanı | 1 | - |
| 5. | Qızıl Qışlaq | 1 | 1 |
| 6. | Biçənək | 2 | - |
| 7. | Ayrınc | 1 | - |
| 8. | Kükü | 1 | 1 |
| 9. | Güney Qışlaq | - | 1 |
| 10. | Keçili | - | 1 |
| | **Cəmi:** | **9** | **6** |
| | ***Kəngərli rayonu üzrə*** | | |
| 1. | Şahtaxtı | 1 | 2 |
| 2. | Yeni Kərki | 1 | 1 |
| 3. | Təzəkənd | 1 | - |
| 4. | Xok | 2 | 1 |
| 5. | Qabıllı | - | 1 |
| 6. | Qarabağlar | - | 1 |
| 7. | Çalxanqala | - | 1 |
| | **Cəmi:** | **5** | **7** |

Əqli və fiziki potensialları bərbər peşəsi üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də kursda təhsil almaq üçün müraciət edə bilərlər.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

1. Yaşayış yerindən arayış
2. Şəxsiyyət vəsiqəsinin surəti
3. Tibbi yoxlama haqqında arayış

**Əlaqə telefonu: 545-32-33**

*Naxçıvan Muxtar Respublika Stadionunda “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında 2003-cü və 2005-ci illər təvəllüdlü uşaqlar arasında futbol üzrə keçirilən Naxçıvan şəhər açıq birinciliyinə yekun vurulub.*

## Futbol üzrə açıq birinciliyə yekun vurulub



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi “Darıdağ” Futbol Klubunun birgə təşkil etdiyi birincilik 2 yaş qrupu üzrə keçirilib. Yarışdan öncə çıxış Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi “Darıdağ” Futbol Klubunun sədr müavini Cavanşir Salayev və Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov bildiriblər ki, birinciliyi keçirməkdə məqsəd Naxçıvan şəhərində yeniyetmələri zərərli vərdişlərdən uzaqlaşdırmaq və onları futbol idman növünə cəlb etməkdir.

8 komandanın iştirak etdiyi açıq birincilikdə Naxçıvan şəhərinin komandaları ilə yanaşı, Şərur rayon Aralıq kəndinin və Culfa şəhərinin komandaları da mübarizə aparıblar. Olimpiya sistemi və futbolun mövcud qaydalarına əsasən keçirilən yarışın yekun nəticəsinə görə, 2003-cü il təvəllüdlü futbolçular arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi “Darıdağ” Futbol Klubunun “Darıdağ” komandası qalib adını qazanıb. 2005-ci il təvəllüdlü futbolçuların mübarizəsində isə “Aralıq” komandası bütün rəqiblərinə qalib gəlib.

Qalib komanda və komanda üzvləri Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi “Darıdağ” Futbol Klubunun diplom, fəxri fərman və medalları ilə təltif olunublar.

## Üzgüçülük üzrə şəhər birinciliyi

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmələr (2003-2004 və 2005-2007-ci illər təvəllüdlü) arasında üzgüçülük üzrə keçirilən Naxçıvan şəhər birinciliyini İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin direktoru Ramin Talıbov açıq elan edib.*

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov çıxış edərək bildirib ki, bu yarışı keçirməkdə məqsəd üzgüçülük idman növünü inkişaf etdirməkdən, məktəbliləri sağlam həyat tərzinə uyğunlaşdırmaqdan ibarətdir. Birincilik Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin birgə təşkilatçılığı ilə keçirilib.

Üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafədə keçirilən yarışda 2 yaş qrupunda 40-a yaxın idmançı iştirak edib. Yarışın yekununa əsasən, 2003-2004-cü illər təvəllüdlü idmançılar arasında Amil Kətanov, 2005-2007-ci illər təvəllüdlü idmançılar arasında isə İsmayıl Yaqubov bütün rəqiblərini qabaqlayaraq qalib adını qazanıblar.

Sonda hər yaş qrupunda yer tutan və fərqlənən idmançılara təşkilatçıların diplom və fəxri fərmanları təqdim edilib.

## Yoldaşlıq görüşü keçirilib

***Ordubad şəhərindəki şahmat məktəbində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında Ordubad və Culfa Rayon Gənclər və İdman idarələrinin və şahmat məktəbinin birgə təşkilatçılığı ilə “Ordubad” və “Culfa” komandaları arasında yoldaşlıq görüşü keçirilib.***

Ordubad Rayon Gənclər və İdman İdarəsinin rəisi Əbülfəz Əliyev çıxış edərək yarış iştirakçılarına uğurlar arzulayıb. Ordubad Rayon Şahmat Məktəbinin direktoru İsrafil Məmmədov isə çıxışında şahmatçıları yarışın qaydaları barədə məlumatlandırıb. Gərgin keçən mübarizənin sonunda Ordubad rayon komandası 3,5 xal, Culfa rayon komandası isə 2,5 xal toplayıb.

Sonda komandalar təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1050. Sifariş № 608**